# Qarabağda soydaşlarımızı xoşbəxt günlər gözləyir

## Azərbaycan dövləti bunun üçün bütün lazımi işləri görür

***Azərbaycan xalqı 44 günlük Vətən müharibəsində xain düşmən üzərində parlaq qələbə qazanaraq doğma torpaqlarını azad etmişdir. Bununla da, xalqımız öz qədim tarixinin ən şanlı səhifələrindən birini yazmışdır. İndi ən vacib vəzifə işğaldan azad edilən əraziləri tezliklə bərpa edərək insanların doğma yurdlarına qayıtmaları üçün lazımi şərait yaratmaqdır.***



***"Bütün torpaqlar planlı şəkildə bərpa ediləcək. Orada insanlar üçün şərait yaradılacaq, elə şərait ki, dünya üçün nümunə olacaq. Heç bir qanunsuz hərəkət ola bilməz. Heç bir torpaq zəbt oluna bilməz. Hər şey planlı şəkildə və əsaslı şəkildədir. Mən əminəm ki, buna biz nail olacağıq".***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bu gün heç kəs zərrə qədər şübhə etmir ki, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə gözəl Şuşamız, külli Qarabağımız ən yaxın aylar, illər ərzində yenidən dirçəldiləcək, insanlar doğma torpaqlarında şən, xoşbəxt həyat sürəcəklər. Sevindirici haldır ki, hər bir Azərbaycan vətəndaşı böyük həvəs və ruh yüksəkliyi ilə bu müqəddəs missiyada iştirak etmək arzusundadır.

Bəli, qarşıda bizi Qarabağda nəhəng tikinti-quruculuq, abadlıq işləri gözləyir. Yağı düşmən Qarabağ torpağında ağlasığmaz vəhşiliklər törətmişdir, evləri, bağçaları, məktəbləri dağıtmış, meşələri yandırmış, yolları bərbad vəziyyətə salmışdır. Sanki Qarabağ üzərindən vəhşi qəbilələr keçmişdir. Erməni xisləti məhz budur, sivil dünya bunu görməli və lazımi nəticə çıxarmalıdır.

Prezident İlham Əliyev bu il fevralın 1-də Azərbaycan televiziyasına müsahibəsində demişdir: "Mən Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarında, Şuşa şəhərində olmuşam. Ağdam şəhəri tamamilə dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Bir yarıdağılmış məscid qalıb, onu da ermənilər təhqir ediblər. Füzuli şəhərində bir dənə də bina yoxdur. Bir üç-dörd mərtəbəli hərbi hissənin binasıdır. Cəbrayıl şəhərində, şəhərin girəcəyində bir hərbi hissə var, şəhər yoxdur. Qubadlı və Zəngilanda bir neçə ev sadəcə olaraq qalıbdır, özü də yarıdağılmış vəziyyətdə".

Ermənistan rəhbərliyi və onun havadarları Qarabağda törətdikləri vandalizmi, barbarlığı gizlətməyə cəhd edirdilər. Təəssüf ki, vaxtilə o bölgələrdə təmsil olunan beynəlxalq təşkilatların nümayəndələri də bunun üstünü örtürdülər. Lakin artıq əsl həqiqət üzə çıxmışdır. Reallıq budur ki, Azərbaycan dövləti İkinci Qarabağ müharibəsində təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişdir, eyni zamanda, erməni faşizmini məhv etmişdir.

Təbii ki, işğalçı Ermənistan törətdiyi bədnam əməllərə görə mütləq cavab verməli olacaq. Son vaxtlar Qarabağa çox sayda xarici jurnalistlər, diplomatlar səfər edirlər, onlar orada hər şeyi öz gözləri ilə görürlər. Dünya ictimaiyyəti ermənilərin qəddar hərəkətlərindən agah olduqca şoka düşür. Ümid etmək olar ki, dünya birliyi Ermənistanın vəhşi Qarabağ talanına adekvat hüquqi qiymət verəcək, erməni faşistləri layiqli cəzalarını alacaqlar.

Azərbaycan xalqı ermənilərdən fərqli olaraq, sivil, mədəni, qurub-yaradan xalqdır. Azad edilmiş ərazilərdə artıq bərpa işlərinə başlanılmışdır. Füzulidən Şuşaya yol çəkilir, Füzuli aeroportu inşa edilir. Ərazilər minalardan təmizlənir, zəruri infrastrukturlar qurulur. Ən başlıcası, işğaldan azad olunmuş ərazilərdə bütün məsələlər düşünülmüş, planlı şəkildə, ardıcıllıqla, ən yüksək müasir standartlar nəzərə alınmaqla həyata keçirilir. Və bu işlər dövlətimizin başçısının birbaşa nəzarətindədir.

Prezident tərəfindən azad edilmiş torpaqların bərpası ilə bağlı bir çox önəmli qərarlar qəbul edilib. Dövlətimizin başçısının sərəncamı ilə həmin ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi üçün Əlaqələndirmə Qərargahı yaradılıb və qərargaha Prezident Administrasiyasının rəhbəri rəhbərlik edir.

Məlum olduğu kimi, cənab İlham Əliyev işğaldan azad edilmiş ərazilərin dirçəlişi istiqamətində quruculuq, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi, bu hədəfə nail olunmasında dövlət orqanlarının və digər təşkilatların əlaqələndirilmiş fəaliyyətinin gücləndirilməsi, habelə idarəetmədə çevikliyin və səmərəliliyin artırılması məqsədilə həmin ərazilərdə xüsusi nümayəndəliklərin təsis edilməsinə dair fərman imzalayıb.

Bu sənədin xüsusi əhəmiyyəti vardır. Belə ki, xüsusi nümayəndəlik bütün neqativ halların qarşısının alınması, səmərəli və operativ idarəetmənin həyata keçirilməsi məsələsində üstünlüklərə malik olan nümunəvi modeldir. Gözlənildiyi kimi, ilk xüsusi nümayəndə Şuşa rayonuna təyin edilmişdir. Onu da vurğulamaq lazımdır ki, Şuşada Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin təyin edilməsi həm də ölkəmizdə yeni idarəetmə institutunun yaradılması deməkdir.

Azərbaycan Prezidenti İlham Əliyev bu il yanvarın 27-də Aydın Kərimovu Prezidentin Şuşa rayonuna xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. Dövlətimizin başçısı qəbulda dərin məzmunlu çıxış edərək mühüm tövsiyələr vermişdir. Möhtərəm Prezidentimiz Şuşa ilə bağlı necə də gözəl demişdir: "Şuşa Azərbaycan xalqının qəlbində xüsusi yerə malikdir. Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir. Şuşanın yerləşməsi, təbiəti, havası, iqlimi, tarixi abidələri, dini abidələrimiz, şəhərin memarlıq ansamblı bizim milli sərvətimizdir. Şuşanı biz qorumalıyıq, qoruyacağıq. Biz Şuşaya qayıtmışıq və bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaqdır".

Bəli, cənab İlham Əliyevin xüsusi vurğuladığı kimi, Şuşa bütün dövrlərdə həmişə Azərbaycan şəhəri olmuşdur və ermənilərin saxtakarlıq cəhdlərinə baxmayaraq, bütün dünya Şuşanı, məhz Azərbaycan şəhəri kimi tanıyıb qəbul etmişdir. Erməni şovinistləri son günlər dünyanın bir sıra ölkələrinin KİV-ində Azərbaycan ilə bağlı yenidən çox saxta ittihamlar irəli sürür, xalqımıza, ordumuza böhtanlar atırlar. Lakin bütün bunlar əbəsdir. Yalan ayaq tutar, yeriməz. Şuşada tarixi həqiqət əbədi bərpa olunub. Azərbaycan xalqı Şuşanı göz bəbəyi kimi əbədi qoruyacaq.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs yaradılmışdır.

Əlbəttə, işğaldan azad edilən ərazilərin bərpası, dirçəlməsi hamının işidir. Bu xeyirxah işdə dövlət təşkilatları ilə bərabər, özəl qurumlar, ayrı-ayrı vətəndaşlar da öz töhfələrini verməlidirlər. Heç kəs kənarda durmamalıdır. Azərbaycanın hər bir vətəndaşı, vəzifəsindən, sosial imkanlarından asılı olmayaraq, kimin nəyə gücü çatırsa, bu istiqamətdə əlindən gələni etməyə borcludur.

Hər bir Azərbaycan vətəndaşı öz vəzifəsini yaxşı başa düşür. Qarabağın dirçəldilməsi və inkişafı üçün əlindən gələni etməyə hazırdır və artıq bu sahədə real işlərə start verilib. Xaricdə yaşayan soydaşlarımız da Qarabağın dirçəlişi və çiçəklənməsində fəal iştirak etməyi özlərinin mənəvi borcu hesab edirlər. Bir sözlə, el bir olsa, dağ oynadar yerindən. Əminik ki, Vətən müharibəsi günlərində olduğu kimi, xalqımız Qarabağın yenidən qurulmasında da sarsılmaz birlik və həmrəylik nümayiş etdirəcək.

Bu gün düşməndən azad olunmuş ərazilərdə tikinti-quruculuq işlərinə uğurlu start verilib və bu istiqamətdə işlər getdikcə sürətlənəcək. Dünyanın ən aparıcı şirkətləri Azərbaycan iqtisadiyyatına böyük sərmayələr yatırmağa hazır olduqlarını bəyan ediblər. Azərbaycan, təbii ki, ilk növbədə, dost ölkələrin şirkətləri ilə işləməyə üstünlük verir. Biz düşmənlərimizi tanıyır və dostlarımızın qədrini yaxşı bilirik.

Bu məqamda başqa bir mühüm sənədi də qeyd etmək vacibdir. Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev 2 fevral 2021-ci il tarixdə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Sənəddə qarşıdakı dövrdə ölkənin əsas sosial-iqtisadi inkişaf istiqamətləri və buna uyğun milli prioritetləri müəyyənləşdirilib. İqtisadçılar haqlı olaraq hesab edirlər ki, Milli Prioritetlər Azərbaycanı dünyanın ən qabaqcıl və zəngin ölkələrindən birinə çevirmək prosesini daha da sürətləndirəcək.

Bu günlərdə ölkəmizin tanınmmış ziyalılarından biri mənə dedi ki, bu mühüm sənədlə yaxından tanışlıq insanın gələcəyə olan ümidlərini daha da artırır. Onun fikrincə, hər bir insan yalnız güclü və şərəfli ölkədə özünü tamamilə xoşbəxt hesab edə bilər. Xoşbəxtlikdən, müstəqil Azərbaycan, məhz belə şanlı, şərəfli və şöhrətli dövlətlərdən birinə çevrilməkdədir.

İndi ölkəmizdə böyük ruh yüksəkliyi var. Azərbaycan xalqı çağdaş dünyanın ən görkəmli dövlət xadimlərindən olan Prezident İlham Əliyevə, onun xalqımızın parlaq gələcəyinə xidmət edən müdrik siyasi kursuna bütün varlığı ilə inanır və güvənir. Hər kəs əmindir ki, cənab İlham Əliyevin liderliyilə gözəl Şuşamız, külli Qarabağımız ən yaxın illər ərzində laləzara, gülüstana çevriləcək. Təkcə Qarabağımız deyil, bütün Azərbaycan dünyanın yüksək tərəqqi və mədəni intibah mərkəzlərindən biri olacaq.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 11 fevral.- S.3.